# İnsan hüquqları sahəsində beynəlxalq məhkəmə proseslərində şahid ifadələri: Hazırlama Bələdçisi

European Human Rights Advocacy Centre

Middlesex University London

Hazırladı:
Avropa İnsan Hüquqlarını Müdafiə Mərkəzi
Middlesex Universiteti, London
Avqust 2019

# Mündəricat

Şahid ifadələrinin rolu ..... 3
İfadələr nə üçün bu qədər vacibdir? ..... 3
Şahid ifadələri nə zaman təqdim olunmalıdır? ..... 4
Müsahibəyə hazırlıq ..... 5
Müsahibə zamanı ..... 5
İfadənin tərtib olunması: yadda saxlamalı məqamlar ..... 6
İfadələr aydın və konkret detalları ehtiva etməlidir ..... 6
Şayiələrdən yayınmaq mümkündürsə, onları daxil etməyin ..... 6
İfadə şahidin öz sözləri ilə tərtib olunmalıdır ..... 7
İfadə hüquqi iddia və ya arqumentləri ehtiva etməməlidir ..... 7
İfadənin bütün müvafiq məsələləri əhatə etməsini təmin edin ..... 7
Hər hansı təsdiqləyici və ya əsaslandırıcı sübutları qoşma şəklində əlavə edin ..... 8
İfadənin yekunlaşdırılması ..... 8
Məlumatların yenilənməsi ..... 8
Anonimlik ..... 8
Qoşma 1: Şahid ifadələrində əhatə olunmalı bəzi məsələlərə dair nümunələr ..... 10
Bütün şahidlər üçün suallar ..... 10
Zərərçəkən statusu daşıyan şahidlər üçün əlavə suallar ..... 11
Qoşma 2: Şahid ifadəsinin təqdim olunması (şablon) ..... 13

**Bu Qaydanın 2008-ci ildə çap olunmuş birinci nəşrinin hazırlanmasında göstərdikləri köməkliyə görə Kler Darta və Tim Otti QC-yə minnətdarlığımızı bildiririk.**

# Şahid ifadələrinin rolu

Avropa İnsan Hüquqları Məhkəməsində (Məhkəmə) və ya Birləşmiş Millətlər Təşkilatının (BMT) hər hansı Müqavilə Orqanı qarşısında qaldırılan iş zərərçəkənin və ya onun nümayəndəsinin ərizə verməsi ilə başlayır. Ərizədə əsasənzərərçəkən haqqında qısa məlumat, Avropa İnsan Hüquqları Konvensiyasının (AİHK) və ya digər bir Konvensiyanın yaxud beynəlxalq Paktın iddia olunan pozuntuları haqqında qısa bəyanat və zərərçəkənin Məhkəmədə və ya Müqavilə Orqanı qarşısında iş qaldırmaq hüququnu təsbit edən digər qısa məlumat öz əksini tapır. Ərizə verilərkən və ya bəzi hallarda daha sonra, ərizəçi və ya onun nümayəndəsi Konvensiyanın/Paktın iddia olunan pozuntularının tam təfərrüatlarını ehtiva edən daha dolğun təqdimatlar verirlər. Bu təfərrüatlar zərərçəkəndən, işlə bağlı məlumatlı olan digər şəxslərdən və ya müvafiq sahə mütəxəssislərindənəldə edilən sübutlardan asılı olduqda, bu sübutların şahid ifadəsi formasında Məhkəməyə/Müqavilə Orqanına təqdim olunması zəruri olur.

### İfadələr nə üçün bu qədər vacibdir?

Beynəlxalq məhkəmələrdə demək olar ki, bütün işlərə kağız sənədlər əsasında baxılır. Yəni şahidin şəxsən ifadə vermək üçün iştirak etdiyi şifahi məhkəmə dinləməsi əksər hallarda olmur. Hətta şifahi dinləmə keçirildikdə belə, şahidin bütün bildiklərini Məhkəməyə və ya müvafiq BMT Komitəsinə bildirmək imkanına malik olacağı ehtimalı az olur. Nəticədə, zərərçəkənin və ya baş vermiş hadisələr barədə məlumatı olan digər şəxslərin təqdim etdiyi bütün müvafiq sübutların nəzərə alınmasını təmin etməyin ən mühüm yolu yazılı şahid ifadələridir.

Mülki hüquq sistemli ölkələrdə ölkədaxili icraat zamanı bir qayda olaraq istintaq və/ya cinayət təqibi orqanları şikayətçilərdən və şahidlərdən yazılı ifadələr (izahatlar) alır və bu ifadələr milli məhkəmələr tərəfindən çıxarılan qərarların sübutedici əsasını təşkil edə bilər (şifahi ifadəyə əlavə olaraq). Lakin beynəlxalq səviyyədə aparılan icraat üçün yalnız bu ifadələrin təqdim olunması bir çox cəhətdən nöqsanlı ola bilər: onlar çox səthi ola bilər, həcmcə çox məhdud ola bilər, istintaq orqanının həmin vaxtdakı konkret maraqlarını əks etdirən xüsusi "mövqe" ehtiva edə bilər. Bundan başqa, ölkədaxili icraat zamanı müstəntiqlərin aldığı ifadələr beynəlxalq səviyyədə qaldırılacaq bəzi məsələləri, məsələn, ayrı-seçkiliyə məruz qalmanı, ehtiva etməyə bilər. Zərərçəkənlərə münasibətdə isə həmin ifadələr hüquq pozuntularının təsirləri haqqında sübutlardan ümumiyyətlə bəhs etməyə bilər. Ən pis hallarda, müstəntiqlərin aldığı ifadələrdə baş vermiş hadisənin "rəsmi versiyası" ilə uyğun gəlməyən hissələrinüstündən qəsdən keçilə bilər və ya şahidlər təzyiq yolu ilə müəyyən şeyləri deməyə yaxud digər şeylərin üstündən keçməyə məcbur edilə bilər. Daha vacibi isə səlahiyyətli orqanlar müəyyən şahidləri ümumiyyətlə müəyyənləşdirməmiş, axtarmamış və dindirməmiş ola bilər (bu, bəzi hallarda məqsədli şəkildə edilə bilər).

**Bütün bu səbəblərə görə də, şahidlərdən beynəlxalq səviyyədə qaldırılan məsələlərə əlaqəli olan bütün faktiki hallardantam, təfsilatlı şəkildə bəhs edən ifadələrin alınması demək olar ki, həmişə zəruridir. Bunun edilməsinə heç bir prosessual maneə yoxdur.**

İstənilən işdə irəli sürülə biləcək hüquqi arqumentlər sübutlarla, o cümlədən şahid ifadələri ilə əsaslandırılmalıdır. Bu ifadələrdə və ya digər sübutlarda kifayət qədər detallar təqdim edilməzsə, insan hüquqlarının pozulması haqqındakı iddia təmin olunmaya bilər. Məhkəmə və ya Komitə sübutların təqdim olunmamasından iddianın əsaslı olub-olmaması ilə bağlı nəticələr çıxara (baxın:

məs. Avropa İnsan Hüquqları Məhkəməsinin Qaydalarının 44C saylı Qaydası) və ya iddianı əsaslandırılmamış hesab edə bilər. Analoji olaraq, zərərin ödənilməsi, başqa sözlə"ədalətli kompensasiya" tələbi də(yalnız Məhkəmə qarşısında qaldırılır) ifadələrdə zərərçəkənin məruz qaldığı ziyan və həmin ziyanın səbəbləri haqqında kifayət qədər detalların olmadığıhallarda tam və ya qismən təmin olunmaya bilər. Buna görə də, Məhkəmədə/BMT-nin Müqavilə Orqanında qaldırılan konkret iddialara bağlı bütün məsələlər barədə mümkün qədər çox detalları ehtiva edən ifadələrin hazırlanması vacibdir.

## Şahid ifadələri nə zaman təqdim olunmalıdır?

Şahid ifadələri aşağıdakı hallar daxil olmaqla, icraatın bir çox mərhələsində tələb oluna bilər:

- ərizə ilə birlikdə təqdim etmək;
- iş üzrə yeniliklər barədə yeni məlumat vermək;
- Hökumət tərəfindən qaldırılan məsələlərə və ya açıqlanan sənədlərə faktlarla cavab vermək;
- zərərin ödənilməsi ilə və ya xüsusi tədbirlərlə bağlı iddianı əsaslandırmaq.

## Müsahibəyə hazırlıq

Şahidlərin hər biri ilə ayrı-ayrılıqda görüş planlaşdırın.

Şahidlə müzakirə olunacaq sualların siyahısını onunla görüşdən əvvəl hazırlayın. Bu, bütün müvafiq məsələlərin əhatə olunmasını təmin etməkdə sizə kömək edəcək.Həmçinin bu, şahidi sizə lazım olan informasiyanı verməyə istiqamətləndirəcək və onun ifadəsinin hazırlanmasına aidiyyəti olmayanməsələlərin müzakirəsindən yayınmaqda sizə kömək edəcək. Hətta sizin işlə bağlı heç bir ilkin məlumatınız olmadıqda və şahidin sizə nələri deyə biləcəyini bilmədikdə belə, bütün hallar üçün keçərli soruşmalı olacağınız bəzi elementar suallar vardır və bu suallardan başlamağınız faydalı olar (baxın, aşağıda: "İfadələrdə əhatə olunmalı bəzi məsələlərə nümunələr").

Şahidi dindirən zaman yönəldici suallar verməkdən çəkinməlisiniz. Yönəldici suallar cavabı təlqin edən suallardır: məsələn, "siz əsgər tərəfindən döyülmüsünüz?" və ya "zərərçəkən ağır xəsarət almışdı, elə deyilmi?". Şahidin baş verənləri sizə öz sözləri ilə danışması daha yaxşıdır.Buna görə də, siz ümumi və ya açıq suallardan istifadə etməlisiniz: məsələn, "sizə nə oldu?", "bu nə zaman baş verdi?" və ya "həmin vaxt zərərçəkən harada idi?".

Çox vaxt məlumatları xronoloji ardıcıllıqlaalmağa çalışmaq ən asan metoddur. Bu üsulla söhbətin gedişində ortaya çıxan bəzi ziddiyyətlərlə bağlı suallar verə bilərsiniz. Şahidin bir hadisədən digərinə keçməsi üçün "sonra nə oldu?" kimi suallardan istifadə edin.

## Müsahibə zamanı

Şahidin verdiyi cavabları onun öz sözlərindən istifadə edərək tam qeydə alın. Tərcüməçi ilə işləyirsinizsə, tərcüməçinin sizin sualları və şahidin cavablarını tam və dəqiq şəkildə tərcümə etməsinitəmin edin.

Müsahibənin gedişatında heç nəyi nəzərdən qaçırmamaq üçün sualların siyahısına yenilərini əlavə edin. Şahid ifadəsini verərkən nəyi isə başa düşməsəniz, şahiddən onu izah etməsini xahiş edin.

Şahidin keçirdiyi travmanın səviyyəsindən, onun yaşından, səhhətindən və ya əqli qabiliyyətindən asılı olaraq bir uzun müsahibə yerinəbir neçə qısa müsahibə aparmaq daha məqsədəuyğun ola bilər. Müsahibə zamanı şahidin davranışına fikir verin və şahid narahatlıq keçirərsə və ya digər səbəblərdən fasiləyə ehtiyacı olarsa, müsahibəni müvəqqəti dayandırın yaxud bitirin.

İfadəni yekunlaşdırmaq üçün şahiddən bir neçə müsahibə aldığınız halda, onunla müzakirə etməli olduğunuz məsələləri hər görüşdən əvvəl planlaşdırın. Aldığınız məlumatları nəzərdən keçirin, şahidin ifadəsində hər hansı boşluq və ya ziddiyyətlərimüəyyənləşdirin və növbəti görüş zamanı bunlar barədə ona sual verin. Əlavə təfsilat və ya izahat almağa ehtiyacınız yoxdursa, verdiyiniz və cavabını aldığınız sualları təkrarlamayın. Bu, xüsusilə şahidin travmatik hadisələri xatırlamalı olduğu hallarda vacibdir.

Şahidin ifadəsində zaman baxımından boşluq olarsa, baş verən hadisələr və onların hansı ardıcıllıqla baş verməsi barədə konkret suallar verin. Məsələn, şahid itən qohumunu hadisədən dörd saat keçəndən sonra axtarmağa başladığını deyərsə, bunun səbəbinivə həmin aralıqda (dörd saat ərzində) nə baş verdiyini izah etməsini xahiş edin. Şahid baş verənlər haqqında sizə polisə verdiyindən fərqli

ifadə verərsə, bu barədə ona sual verin. Bəzən sualın fərqli formada qoyulması ziddiyyətləri aradan qaldırar, belə ki, zidiyyətyanlış başa düşmənin və ya yanlış tərcümənin nəticəsi ola bilər (tərcüməçi iləişləyərkən). Boşluqlar və ya zidiyyətlərhələ də qalarsa, bunun səbəblərini şahidlə birlikdə araşdırmağa cəhd edin.

Şahidi gələcəkdə məruz qalacağı hər hansı hədə-qorxu və ya təzyiqlər barədə vəkilinə məlumat verməli olduğu haqda bilgiləndirin.

## İfadənin tərtib olunması: yadda saxlamalı məqamlar

### İfadələr aydın və konkret detalları ehtiva etməlidir

İfadədə yer alan məlumatların ətraflı, aydın və yığcam olmasını təmin etmək vacibdir. İfadəyə mümkün qədər çox işə aidiyyəti olan detallar daxil edilməli, aidiyyəti olmayan detallar isəçıxarılmalıdır. Lazım olduğundan daha uzun olan və ya işə aidiyyəti olmayan məlumatları əks etdirən ifadənin baş vermiş hadisə ilə bağlı qərar qəbul edərkən Məhkəməyə/Komitəyə köməyi dəyməyəcək. İşə aidiyyəti olmayan və ya barəsində şahidin şəxsən sübut təqdim edə bilmədiyi məlumatlar ifadənin həqiqiliyinə xələl gətirə və ya şahidin təqdim etdiyi əsas sübutların əhəmiyyətini azalda bilər.

Şahidin ifadəsində boşluqlar və ya zidiyyətlər olarsa, bunların səbəbləri ifadəyə daxil edilməlidir. Fikirləri deyil, faktları daxil edin.

Şahid ifadələri başlıca olaraq faktların bəyan edilməlisidir. Şahid öz ifadəsində bir qayda olaraq şəxsi şərh və ya fikirləri yox, yalnız ona məlum olan faktlar barəsində məlumat verməlidir. Burada bəzi istisnalar vardır. Məsələn, şahid sizin tərəfinizdən işinizin konkret bir aspekti üzrə peşəkar rəy vermək üçün cəlb edilmiş ekspertdirsə (məs. məhkəmə tibb eksperti, ordu zabiti, mühəndis, elmi işçi və s. olarsa), o, öz bilik sahəsinə aid məsələ barəsində öz rəyini verə bilər (lakin bu sahədən kənar və ya işin hüquqi arqumentləri üzrə rəy verə bilməz). Eyni zamanda, şahidin fərziyyəsi vacibdirsə, bu fərziyyə barədə təfərrüatlar və onun səbəbləri təqdim olunmalıdır. Məsələn, şahid qohumunun ölümündə ,zərurimüdafiə halının mövcudluğunu iddia edirsəvə ya səlahiyyətli orqanların hadisə ilə bağlı düzgün təhqiqat aparmadığını hesab edirsə, bu, şahidin ifadəsinə daxil edilməlidir. Analoji olaraq, işə aidiyyəti olarsa, şahid hadisə zamanı və ya ondan sonra özünü necə hiss etdiyini izah etməlidir. Məsələn, şahid evində axtarış aparıldığı zaman və ya polisin onu etiraz aksiyası zamanı yaxud partnyorunun zorakılığından qorumadığı zaman özünü necə hiss etdiyini izah edə bilər.

### Şayiələrdən yayınmaq mümkündürsə, onları daxil etməyin

Şayiə şahidin şəxsən bildiyi bir şey olmayıb, başqalarının dediklərinə əsaslanan dəlildir. Məsələn, hücum baş verərkən şahid hadisə yerində olmayıbsa, lakin onun anası orada olubsa və hücum barədə şahidə danışıbsa və şahid də həmin məlumatı ifadəyə daxil edibsə, bu məlumat şayiədir. Bu misalda şahid ifadəsi hücumu faktiki görən şəxsdən, yəni şahidin anasından götürülməlidir. Ümumiyyətlə, məlumatın ilkin mənbəyindən ifadə almaq mümkündürsə (əgər bunu etməmək üçün əsaslı səbəb olmazsa), şahid ifadəsinə şayiə daxil edilməməlidir.

Məlumatın mənbəyindən ifadə almaq mümkün olmadıqda, şahidin ifadəsi aşağıdakı məlumatların mümkün qədər çoxunu ehtiva etməlidir:

- Məlumatı şahidə kim verib;

- Məlumat nə zaman və hansı kontekstdə verilib;
- Məlumatın mənbəyi faktiki olaraq nələri deyib;
- İşə aidiyyəti olarsa, məlumatı verərkən məlumat mənbəyinin davranışı; və
- Məlumatın mənbəyindən ifadə almağın nə üçün mümkün olmaması.

**İfadə şahidin öz sözləri ilə tərtib olunmalıdır**

İfadələr mümkün qədər şahidin öz sözləri ilə tərtib olunmalı və birinci şəxsdə yazılmalıdır, yəni sanki şahid ifadəsini şəxsən verir. Məsələn, ifadələrdə belə qeyd olunmalıdır: "Mən bunu etdim..." və "Mən bunu gördüm...". Eyni zamanda, ifadələr hüquqi terminalogiya ilə deyil, şahidin istifadə edəcəyi sadə sözlərlə və şahidin başa düşdüyü dildə tərtib olunmalıdır.

İfadələr hadisələri şahidin nöqteyi-nəzərindən təsvir etməlidir. Bu, xüsusilə eyni hadisə barədə bir neçə şahidin ifadəsini hazırladığınız zaman vacibdir. Məhkəmə və ya Komitə eyni hadisəni eyni söz və ifadələrlə təsvir edən müxtəlif şahid ifadələrini inandırıcı hesab etməyəcək. Hətta həmin ifadələrdə şahidlərin nöqteyi-nəzərlərinin fərqli olması, hadisə baş verən zaman şahidlərin ayrı-ayrı yerlərdə olmaları, və ya hadisə barədə müxtəlif vaxtlarda xəbər tutmaları faktları belə Məhkəmənin/Komitənin bu qərarına təsir etməyəcək. Sadəcə bir ifadə hazırlayıb, onu hər şahid üçün nüsxələməyin. Hər şahidin öz sözləri ilə və ayrı-ayrılıqda tərtib olunmuş, hadisələri onun nöqteyi-nəzərindən təsvir edən öz ifadəsi olmalıdır. Yazılı ifadə şahidin Məhkəməyə/Komitəyə şifahi ifadə verəcəyi halda təqdim edəcəyi dəlillərdən ibarət olmalıdır.

**İfadə hüquqi iddia və ya arqumentləri ehtiva etməməlidir**

Şahid ifadəsində yalnız şahidin dəlilləri yer almalıdır. Burada "bu, AİHK-nın pozuntusunu təşkil edir" və ya "bu, 3-cü maddənin pozuntusudur" kimi hüquqi arqumentlər haqqında hüquqi iddia yaxud fikirlər öz əksini tapmamalıdır. Bunun kimi hüquqi iddialar ilkin ərizədə və ya zərərçəkənin yaxud onun qanuni nümayəndəsinin verdiyi əlavə təqdimatlarda irəli sürülməlidir.

**İfadənin bütün müvafiq məsələləri, o cümlədən iddia olunan pozuntu ilə zərərçəkənin məruz qaldığı ziyan arasında "aşkar səbəbli əlaqəni" müəyyən etmək üçün lazım olan sübutları əhatə etməsini təmin edin**

Şahid pozuntu nəticəsində maddi və digər itkilərə və ya ziyana məruz qaldığını iddia edirsə, onun hansı itkiyə/ziyana məruz qaldığı və pozuntunun bu itkiyə/ziyana necə səbəb olduğu barədə izahatın verilməsini təmin edin. "Aşkar səbəbli əlaqə" müəyyən olunmadıqda, ədalətli kompensasiya iddiası təmin edilməyə bilər. Maddi zərərlə bağlı iddialar iddia olunan zərərin miqdarının necə müəyyən olunduğunu izah edən ifadələrlə əsaslandırılmalı, müvafiq sənədli sübutlar qoşma şəklində əlavə edilməlidir. Nümunələr:

- Qazancın itirilməsiiddiaları bank qeydləri və ya əvvəlki maaşları sübut edən hesablaşma cədvəlləri və ya şəxsin əmək haqqını müəyyən edən əmək müqaviləsi ilə əsaslandırıla bilər.
- Əmlak iddiaları mülkiyyət hüququnu təsdiq edən sənədlərlə, bazar dəyərini göstərmək üçün oxşar, müqayisə ediləbilən əmlaklarlavə ya icarə gəlirinin itirilməsinisübut etmək üçün əvvəlki icarə müqaviləsi ilə əsaslandırıla bilər.
- Məhkəmə xərcləri və ya cərimələr qəbzlərlə təsdiq edilə bilər.

Şahid iş üzrə ərizəçidirsə və öz ərizəsi ilə Məhkəmədən Dövlətə konkret addımlar atmaq (məs. istintaqı yenidən açmaq və ya saxlanılan şəxsi sərbəst buraxmaq) göstərişinin verilməsini xahiş etməyi

planlaşdırırsa, o, Dövləti bu addımları atmağa təşviq etmək üçün hansı tədbirlərin görüldüyünü izah etməklə, bu xahişi öz ifadəsinə daxil edə bilər.

**Hər hansı təsdiqləyici və ya əsaslandırıcı sübutları qoşma şəklində əlavə edin**

Şahidin dediklərini əsaslandıran və ya təsdiqləyən bütün mövcud sübutlar əldə edilməli və şahidin ifadəsinə qoşma şəklində əlavə olunmalıdır. Uyğun sübutlar hər bir işin faktiki hallarından asılı olsa da, ümumi nümunələrə aşağıdakılar daxildir:

- dəymiş ziyanı, hadisənin iştirakçılarını və ya hadisənin (hadisələrin) baş verdiyi yeri göstərən fotoşəkillər, eskizlər, video kadrlar, xəritələr və ya diaqramlar - qaynaq göstərilməklə (məs. fotoşəkili və ya xəritəni çəkən şəxs, onların çəkildiyi tarix və saat);
- polis protokolları və ya hər hansı digər istintaq hərəkətlərinin protokolları;
- tibbi dəlillər (məs. həkim arayışları, xəstənin tibbi kartı və ya psixoloji sağlamlıq haqqında arayışlar);
- itirilmiş əmlakın dəyərini və/ya itirilmiş əmlakı əvəzləmə xərclərini göstərən qəbzlər, hesab-fakturalar və ya digər dəlillər;
- hadisə və ya hadisələrə dair hər hansı milli məhkəmə qərarları və ya inzibati qərarlar;
- işə aidiyyətləri olduğu halda, hadisələrlə və ya ölkədəki vəziyyətlə bağlı xüsusi tədqiqatlar, qəzet məqalələri və ya digər rəsmi hesabatlar.

## İfadənin yekunlaşdırılması

İfadəni tərtib etdikdən sonra şahidin ifadəni nəzərdən keçirməsi üçün vaxt razılaşdırın və hər hansı düzəlişləri şahidin ifadəni imzalamasından və tarix qoymasından əvvəl edin. İfadə tərcüməçi vasitəsilə hazırlanmışdırsa, ifadənin dəqiq tərcümə olunduğundan və şahidin imzaladığı ifadənin dilini başa düşdüyündən əmin olun.

## Məlumatların yenilənməsi

Şahid işin gedişatında işə aidiyyəti olan yeniliklərlə əlaqədar birdən çox ifadə verməli ola bilər. Çox vaxt ərizəçilər Hökumətin ərizəyə rəsmi cavab verməsindən və ya iş üzrə müəyyən sənədləri açıqlamasından sonra konkret məsələlərlə bağlı əlavə təkzibedici dəlillər və ya faktlara əsaslanan cavab təqdim etməli olurlar. Siz bu əlavə dəlillərin bəyan edildiyi və başlığında şahidin əlavə və ya ikinci şahid ifadəsi olduğunun qeyd edildiyi bir (və ya bir neçə) əlavə ifadə (ifadələr) hazırlaya bilərsiniz.

## Anonimlik

Hər hansı iş üzrə hazırlanan şahid ifadələri Cavabdeh Hökumətə açıqlanacaq. Bununla belə, ərizəçilər "demokratik cəmiyyətdə mənəviyyatın qorunması, ictimai qayda və ya milli təhlükəsizlik maraqları naminə, habelə yetkinlik yaşına çatmayanların maraqları, yaxud tərəflərin və ya hər hansı maraqlı şəxsin şəxsi həyat sirrinin qorunması bunu tələb etdikdə, yaxud da aşkarlığın ədalət mühakiməsinin maraqlarına xələl gətirə biləcəyi xüsusi hallarda Palata Sədrinin rəyinə görə ciddi zərurətin tələb etdiyi dərəcədə" digər iş materialları kimi şahid ifadələrinin də ictimaiyyətə əlçatan

olmamasını tələb edə bilər (Avropa İnsan Hüquqları Məhkəməsinin Qaydalarının 33-cü Qaydasının 2-ci bəndi).

# Qoşma 1: Şahid ifadələrində əhatə olunmalı bəzi məsələlərə dair nümunələr

Aşağıda şahidlərdən soruşmalı ola biləcəyiniz suallara və fərdi ifadələrdə əhatə edilməli olan məsələlərə dair bəzi nümunələr verilmişdir. Bunlar sadəcə nümunə xarakterlidir və soruşmalı olacağınız konkret suallar üzərində işlədiyiniz hər bir işin faktiki hallarındanasılı olacaq. Eyni zamanda qeyd olunmalıdır ki, şahidlərin hamısı aşağıda qeyd olunan hər bir məsələ üzrə ayrı-ayrılıqda detallı məlumat vermək iqtidarında olmayacaq.

Cavablar yuxarıda təsvir olunduğu qaydada (yəni, birinci şəxsin dilindən nəql olunan axıcı mətn)ifadə formasına salınmalı və sual-cavab siyahısı kimi təqdim olunmamalıdır.

**Bütün şahidlər üçün suallar**

1. Şahid
    a. Tam adı;
    b. Doğum tarixi;
    c. Ünvanı; və
    d. Peşəsi.

2. Faktlar
    a. Hadisə (hadisələr) nə vaxt (hansı tarixdə və saat neçədə) baş verib?
    b. Şahid həmin vaxt harada idi? O, nə edirdi?
    c. Hadisə baş verəndə şahidin yanında kimlər var idi? Şahid hər bir şəxsin şəxsiyyətini mümkün qədər yaxşı müəyyənləşdirsin, məs. aşağıdakıları açıqlasın:
        - şəxsin adı;
        - şəxsin doğum tarixi;
        - orada olmuş hər bir şəxsin şahidlə əlaqəsi, məs. qonşu, qardaş, dost;
        - vəzifəli şəxs olarsa, işlədiyi qurum və rütbəsi;
        - şahid həmin şəxsi tanımırsa, şəxsin hər hansı müəyyənedici əlamətləri, geyimi və ya qeyri-adi xüsusiyyətləri.
    d. Şahid nələri görüb?
    e. Orada olan hər bir şəxs nə deyib və ya edib?
    f. Hadisənin nəticəsində nə baş verib?
    g. Hər hansı ziyan vurulubmu və ya xəsarətə məruz qalınıbmı?
    h. Əgər belədirsə, buna kim və ya nə səbəb olub? İştirakçılar barədə aşağıdakılar daxil olmaqla mümkün qədər çox müəyyənedici məlumatlar verin:
        - istifadə olunan hər hansı adlar;
        - iştirak edənlərin rütbəsi və ya rütbələri;
        - hər hansı uniforma və ya nəqliyyat vasitəsi nişanları;
        - istifadə olunan dillər;
        - istifadə olunan silahlar və ya digər vasitələr;
        - hər hansı digər müəyyənedici əlamətlər, məs. üz tükü, çapıqlar və s.
    i. Hadisədən əvvəl zərərçəkənin səhhəti və ya zərərçəkənin əmlakının vəziyyəti necə olub?
    j. Şahid və ya orada olan digər şəxslər hadisədən dərhal sonra nə ediblər?
    k. Zərərçəkən hara isə aparılıbsa:
        - o, necə aparılıb?
        - kimin tərəfindən aparılıb? həmin şəxsin görünüşü necə idi? (həmçinin baxın, yuxarıda: 2(h).)
        - onun yanında başqa kimsə olubmu?

- o, hara aparılıb?
- o, orada nə qədər saxlanıb?
- o, başqa bir yerə köçürülübsə, bu nə vaxt baş verib və həmin yer hara olub?

l. Hadisələrin bundan əvvəl müəyyənləşdirilməmiş hər hansı digər şahidləri olubmu? Əgər belədirsə, bilirsinizmi onlarla necə əlaqə yarada bilərik?

**Zərərçəkən olan şahidlər üçün əlavə suallar**

3. Ölkədaxili və digər hüquqi müdafiə vasitələri
    a. Yerli və ya milli səlahiyyətli orqanlar tərəfindən hər hansı araşdırma aparılıbmı?
    b. Səlahiyyətli bir şəxsə (yəni, dövlət məmuruna) məlumat verilibsə, bu məlumatı kim verib və kimə verib? Həmin məmur harada işləyirdi? O, nə edəcəyini deyib?
    c. Zərərçəkən başqa hansı hüquqi addımları atıb? İddiaya hansı məhkəmə/tribunal baxıb? Onun nəticəsi (nəticələri) necə olub?
    d. Hər hansı yazılı hökmlər/rəylər verilibmi? Zərərçəkəndə onların nüsxəsivarmı? Əgər yoxdursa, o, onların nüsxəsini/surətini əldə edə bilərmi?
    e. O, başqa hansı mümkün hüquqi addımları ata bilərdi? Başqa hüquqi seçimlər var idisə, nə üçün onlardan istifadə etməyib?
    f. Sonuncu hüquqi addım nə zaman tamamlanıb?
    g. Sonuncu hüquqi addımın tamamlanmasından 6 aydan çox vaxt keçibsə, hər hansı davam edən pozuntular varmı?
    h. Zərərçəkən hər hansı digər beynəlxalq məhkəməyə və ya tribunala şikayət veribmi?
4. Hadisənin zərərçəkənə təsiri
    a. Hadisənin zərərçəkənə hansı təsiri olub?
    b. Zərərçəkən hər hansı fiziki zərərə məruz qalıbmı? Əgər belədirsə, nə vaxt, harada və hansı fiziki zərərə məruz qalındığı barədə tam təfərrüatları təqdim edin.
    c. Zərərçəkən emosional və ya psixoloji zərərə, o cümlədən əzaba məruz qalıbmı? Əgər belədirsə, nə vaxt, harada və hansı zərərə məruz qalındığı barədə tam təfərrüatları təqdim edin.
    d. Zərərçəkən hər hansı tibbi və ya digər müalicə üçün müraciət edibmi? Edibsə, kimə müraciət edib? Müalicənin xarakteri necə olub və xərci nə qədər olub?
    e. Hansı davamlı müalicə tövsiyə olunub?
    f. Zərərçəkən hələ də hadisənin hər hansı fiziki, emosional və ya psixoloji təsirlərinə məruz qalırmı?
5. İtkilər – Torpaq sahəsi (müvafiq olarsa)
    a. Zərərçəkənin sərəncamında hücumdan əvvəl hansı ölçüdə torpaq sahəsi olub?
    b. Torpaq sahəsinə dəyən ziyanın xarakteri və miqyası necə olub?
    c. Zərərçəkən torpaq sahəsinin sahibi idi? Əgər belədirsə, zərərçəkənin onu satın aldığına görə pul borcu olubmu?
    d. Zərərçəkən torpaq sahəsini icarəyə götürmüşdü? Əgər belədirsə, zərərçəkən ona görə nə qədər icarə haqqı ödəyirdi?
    e. Torpaq sahəsindən necə istifadə olunurdu? Onun nə qədəri əkin, mal-qara, binalar və s. üçün istifadə olunurdu?
    f. Zərərçəkən torpaq sahəsindən nə qədər icarə gəliri (əgər olurdusa) əldə edirdi?
    g. Zərərçəkən torpaq sahəsi ilə bağlı olaraq əkilən məhsulun satışından və ya hər hansı digər mənbədən nə qədər mənfəət əldə edirdi?
    h. Zərərçəkənin təxmini hesablamasına görə, torpaq sahəsindən əldə olunaraq ailəsi tərəfindən istehlak edilən məhsulların pulla ifadədə dəyəri nə qədərdir?
    i. Torpaq sahəsində nə qədər/hansı növ heyvanlar saxlanırdı? Zərərçəkənin təxmini hesablamasına görə, onların pul dəyəri nə qədərdir? Bu təxmini hesablama nəyə əsaslanır?

   j. Hadisə baş verən zaman torpaq sahəsində nə qədər/hansı növ məhsullar yetişirdi? Zərərçəkənin təxmini hesablamasına görə, onların pul dəyəri nə qədərdir? Bu təxmini hesablama nəyə əsaslanır?
   k. Torpaq sahəsində başqa hansı resurslar var idi? Məsələn, su ehtiyatları və s.?
   l. Torpaq sahəsi hesabına nə qədər insan dolanırdı və ya təmin olunurdu?
   m. Torpaq sahəsinə dəyən ziyan nəticəsində zərərçəkən hansı itkilərə məruz qalıb?
6. İtkilər – Binalar (müvafiq olarsa)
   a. Zərərçəkənin sərəncamında nə qədər və hansı növ binalar var idi?
   b. Həmin binalara dəyən ziyanın xarakteri və miqyası necə olub?
   c. Zərərçəkən binaların sahibi idi? Əgər belədirsə, onların satın alınması/tikilməsi ilə bağlı hər hansı pul borcu var idi?
   d. Zərərçəkən binaları icarəyə/kirayəyə götürmüşdü? Əgər belədirsə, nə qədər icarə/kirayə haqqı ödəyirdi?
   e. Zərərçəkən binalara görə hər hansı icarə/kirayə haqqı alırdı? Alırdısa, nə qədər?
   f. Binaların yerüstü sahəsi nə qədər idi? Onların neçə mərtəbəsi var idi?
   g. Binalar hansı tikili növünə aid idi?
   h. Zərərçəkənin təxmini hesablamasına görə, binaların dəyəri nə qədərdir? Bu təxmini hesablama nəyə əsaslanır?
   i. Neçə müddət idi ki, zərərçəkən binaların sahibi idi və ya onları icarəyə götürmüşdü?
   j. Binalara dəyən ziyan nəticəsində zərərçəkən hansı itkilərə məruz qalıb?
7. İtkilər – Şəxsi əmlak (müvafiq olarsa)
   a. Zərərçəkən torpaq sahəsindən/binalardan və mal-qaradan başqa hansı əmlaka (məs. mebel, alətlər, paltarlar, şəkillər və fotolar) malik idi?
   b. Zərərçəkənin təxmini hesablamasına görə, itirilmiş əşyaların dəyəri nə qədərdir? Bu təxmini hesablama nəyə əsaslanır?
   c. Bu əşyalar əvəzlənə bilərmi? Əgər belədirsə, bunun nə qədər xərci olar?
8. Qazancın (keçmiş və gələcək) əldən çıxması
   a. Zərərçəkən hadisədən əvvəl nə qədər gəlir əldə edirdi?
   b. Zərərçəkən indi nə qədər gəlir əldə edir?
   c. Bunun gələcəkdə dəyişmək ehtimalı varmı? Varsa, nə üçün?
   d. Hadisə bu dəyişikliyə necə səbəb olub?
9. Zərərçəkən öz evini itiribsə/onun şəxsi əşyaları məhv edilibsə, zərərçəkən hadisədən bəri aşağıda qeyd olunanlar üçün nə qədər ödəniş edib və hazırda nə qədər ödəniş edir?
   a. cari yaşayış yeri üçün kirayə haqqı
   b. ərzaq/digər ilkin tələbat malları
   c. paltarlar
   d. kommunal xidmətlər, məs. elektrik/yanacaq ödənişləri
   e. hadisədən irəli gələn digər xərclər

10. Ölkədaxili icraatlarda hüquqi xərclər və ya cərimələr
   a. Zərərçəkən bu günə qədər ölkədaxili və digər icraatlar çərçivəsində hüquqi xidmət haqları və digər xərclər qismində nə qədər ödəniş edib?
   b. Zərərçəkən ölkədaxili icraatlar çərçivəsində hər hansı cərimələr ödəyibmi? Ödəyibsə, nə qədər və hansı tarixdə (tarixlərdə)?
   c. Zərərçəkən indiyə qədər ödədiyi xidmət haqlarının/xərclərin və ya cərimələrin məbləğini sübut etmək üçün hansı sənədləri təqdim edə bilər?

## Qoşma 2: şahid ifadəsinin təqdim olunması (şablon)

1. İşin aparıldığı Məhkəmənin adını, işin adını və ərizə nömrəsini (məlum olarsa), iş üzrə tərəfləri və ifadəni verən şahidin adını əks etdirən başlıq daxil edin, məs.:

   "AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİ Ərizə № 12345/67
   AŞAĞIDAKI TƏRƏFLƏR ARASINDA:

   OLQA İVANOVA (Ərizəçi)
   -və-
   RUSİYA (Cavabdeh)

   ---

   ƏRİZƏÇİ OLQA İVANOVANIN ŞAHİD İFADƏSİ

   ---
   "

2. Birinci abzasda şahidin tam adını, o cümlədən doğum tarixini, ünvanını və peşəsini göstərməklə onun şəxsiyyətini müəyyənləşdirin, məs.:

   "Mənim adım Olqa Anastasiya İvanovadır. Mən 3 iyun 1970-ci ildə Rusiyanın Sankt-Peterburq şəhərində anadan olmuşam. 2018-ci ildən bəri Moskvada yaşayıram və burada həkim işləyirəm. Mənim ünvanım Rusiya, 129128 Moskva şəhəri, Prospekt Mira 352, mənzil 42-dir."

3. Şahidin ifadəsini hansı statusda verdiyini izah edin, məs.:

   "Mən bu iş üzrə birinci ərizəçiyəm" və ya "Mən 1 yanvar 2019-cu ildə vəfat etmiş Vladimir İvanovun anasıyam" və ya "Mən 3 may 2018-ci il gecə saatlarında Azadlıq Meydanında baş vermiş etiraz aksiyalarının şahidi olmuşam".

4. Şahidin ifadə verə biləcəyi faktları xronoloji ardıcıllıqla, nömrələnmiş səhifələrdə nömrələnmiş abzaslar şəklində düzün. Uzun ifadələri hissələrə bölmək üçün başlıq və yarımbaşlıqlardan istifadə edin.

5. Şahid qoşma şəklində sənədlər və ya digər dəlillər əlavə etmək istəyərsə, o, onlara ifadənin əsas mətnində istinad etməli və qoşmanın nömrəsini qeyd etməlidir, məs.:

   "Mən 3 may 2018-ci ildə, günorta saat 3:45-də Meydanda olarkən polis ekoloji məsələlərlə bağlı keçirilən etiraz aksiyalarını dağıtdı. Mən meydanın kənarında, nümayiş keçirilən tərəfə baxan abidənin ayaq hissəsində pillələrin üzərində dayanmışdım. Oradan baş verənləri aydın görürdüm. Mən günorta saat 3:45-dən 3:55-ə qədər baş verən hadisələrin 25 fotoşəkilini çəkdim. Həmin fotoşəkilləri Qoşma 1 kimi əlavə edirəm."

6. İfadəni məlumatların doğruluğu barədə verilmiş bəyanat ilə bitirin, məs.:

   "Mən hesab edirəm ki, bu şahid ifadəsində göstərilən faktlar doğrudur."

7. Şahidin tam adını daxil edin, onların ifadəyə imza atması və tarix qoyması üçün boş yer saxlayın.

8. Şahid ifadəsinə əlavə edilmiş qoşmaların siyahısını daxil edin. Qoşmada çoxsaylı sənəd olarsa (məs. çox sayda fotoşəkil), hər bir sənədin nə olduğunu izah edən siyahı əlavə edin:

“Qoşma 1: Azadlıq Meydanındakı abidənin ayaq hissəsindən 3 may 2018-ci ildə çəkilmiş fotoşəkillər:

Fotoşəkil 1: İğtişaş polisi sıraya düzülüb

Fotoşəkil 2: Etirazçılar əllərində plakatlar tutub

Fotoşəkil 3: Vladimirə dəyənəklə hücum”

European Human Rights
Advocacy Centre

Middlesex University
The Burroughs
Hendon NW4 4BT
Tel: +44 208 411 2826
www.ehrac.org.uk
ehrac@mdx.ac.uk

Avropa İnsan Hüquqlarını Müdafiə Mərkəzi (EHRAC) Middlesex Universitetinin tərkibində yaradılmışdır. Universitet "Xeyriyyə fəaliyyəti haqqında" 1960-cı il tarixli Akta əsasən vergidən azad xeyriyyə cəmiyyətidir.

Bu nəşr Avropa Birliyinin yardımı ilə hazırlanmışdır. Bu nəşrin məzmununa görə məsuliyyəti müstəsna olaraq EHRAC daşıyır və nəşr heç bir formada Avropa Birliyinin mövqeyini əks etdirmir.